# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib



3

# Beynəlxalq ictimaiyyət üçün praktik model




2


SƏS
№ 039 (7449)
Qəzet 1991-ci il yanvarın 11-dən çıxır
22 may 2026-cı il.
Qiymәti 1 manat


## WUF13: iştirakçılar nə deyir, dünya mediası nə yazır...




3

# Putinin Çində "suya düşən" ümidləri...



Pekin Moskva ilə yeni qaz müqaviləsindən imtina etdi

4

## Beynəlxalq hesabat: "Dünyanı yaxşı heç nə gözləmir"



7

## Urbanizasiyanın məhv etdiyi dəyərlərimizdən biri



6

## Uşaqlar Qurban bayramını qorxmadan necə qəbul etməlidir?




7

## Paşinyan İrəvanda "Qarabağ kartı"nı birdəfəlik BASDIRIR...



4

# Beynəlxalq ictimaiyyət üçün praktik model




## *Prezident İlham Əliyev: "Biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq"*

***"Düşünürəm ki, biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq". Bu sözləri Prezident İlham Əliyev mayın 18-də "Euronews" televiziyasına müsahibəsində söyləyib. Dövlətimizin başçısı, həmçinin qeyd edib: "Təəssüf ki, işğal altında olmuş ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması bizi buna vadar etdi. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik". Azərbaycanın şəhərsalma sahəsində sürətli inkişafı, beynəlxalq təcrübə mübadiləsinə açıq olması və Bakı şəhərinin müasir urbanizasiya ilə tarixi irsin harmoniyasını uğurla birləşdirməsi böyük anlam daşıyır. Azərbaycan Şərqlə Qərb arasında körpü rolunu oynayıb.***

Bakıda, qədimliklə yenilik, tarixi irsimizin qorunması ilə şəhərsalmanın planlaşdırılması və müasirləşdirilməsi zəruriliyi arasında təbii vəhdət mövcuddur. Bakı ilə yanaşı, Şuşa, Gəncə, Şəki və digər şəhərlərdə həyata keçirilən şəhərsalmanın inkişaf modeli ölkənin sistemli modernləşmə siyasətinin göstəricisidir. Azərbaycan qlobal şəhərsalma gündəliyində ev sahibi ölkə kimi artan rolunu nümayiş etdirir. Bakı Olimpiya Stadionunda keçirilən genişmiqyaslı tədbir beynəlxalq əməkdaşlıq və davamlı şəhər inkişafı üçün mühüm platformadır. WUF13-ün Cənubi Qafqazda ilk dəfə Bakıda keçirilməsi region üçün tarixi hadisə kimi qiymətləndirib. Azərbaycanın münaqişədən sonrakı ərazilərdə həyata keçirdiyi bərpa və yenidənqurma təcrübəsi beynəlxalq ictimaiyyət üçün praktik model kimi maraq doğurur.

Müasir dövrdə şəhərsalma artıq qlobal trendə çevrilib. Hazırda dünya əhalisinin 55 faizi şəhərlərdə yaşayır və hesablamalara görə, 2050-ci ilə qədər bu göstərici 70 faizə çata bilər. Azərbaycan İkinci Qarabağ müharibəsindən sonra şəhərsalma sahəsində ən unikal nümunələrdən birini ortaya qoyub. Elə bir dövlət olmayıb ki, bu qədər qısa müddət ərzində öz gücü və imkanları hesabına bu sayda şəhər, kənd və qəsəbəni yenidən bərpa etsin. Hesablamalara görə, 2035-ci ilə qədər Qarabağ və Şərqi Zəngəzurda 200-ə yaxın şəhər, kənd və qəsəbə bərpa olunacaq. Bu, olduqca böyük göstəricidir və faktiki olaraq alternativi yoxdur.

### "BEŞ İLƏ ARTIQ 85 MİN İNSANIN DOĞMA TORPAQLARINA QAYIDIŞINI TƏMİN ETMİŞİK"

Dövlət başçımıza ünvanlanan "Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda "ağıllı şəhər" və yaşıl enerji layihələrini təqdim edib. Bunlar münaqişədənsonrakı dövrdə yenidən qurulan ərazilərdir. Sizcə, bu layihələr qlobal şəhər innovasiyalarına necə töhfə verə bilər?" sualına gəlincə, bunu belə cavablandırıb: "Düşünürəm ki, biz bu günədək şəhər və kəndlərin sıfırdan qurulması ilə bağlı misilsiz təcrübə formalaşdırmışıq. Təəssüf ki, işğal altında olmuş ərazilərin genişmiqyaslı dağıntılara məruz qalması bizi buna vadar etdi. Mərhələli yanaşma, bəzi hallarda isə paralel inkişaf nəticəsində beş ilə artıq 85 min insanın doğma torpaqlarına qayıdışını təmin etmişik. İlk növbədə, elektrik enerjisi məsələsi həll olundu. Bu günədək 307 meqavatlıq hidroenerji gücü istifadəyə verilib, hazırda 340 meqavat gücündə Günəş enerjisi layihələri isə inşa edilir. Bu həcm yalnız Qarabağ və Şərqi Zəngəzur üçün deyil, daha geniş ərazilər üçün də kifayət edəcək". Bütün bunlarla yanaşı, elektrik şəbəkəsinin ölkənin ümumi enerji sistemi ilə inteqrasiyası təmin olunub. Uzunluğu 75 kilometr olan tunellərin 70 kilometri artıq istifadəyə verilib, 435 körpü tikilib. Dəmir yolları, məktəblər, xəstəxanalar - bütün bu işlər paralel şəkildə həyata keçirilir. "Hazırda isə əsas sərmayələrimiz yaşayış sahələrinin tikintisinə yönəldilib - şəhərlərin Baş planları, "Ağıllı şəhər" və "Ağıllı kənd" konsepsiyaları üzrə layihələr həyata keçirilir. Hər bir kənd üzrə planlar icra edilir. Beləliklə, hesab edirəm ki, bizim təcrübəmiz bənzər problemlərlə üzləşmiş ölkələrə yenidənqurma üçün bir nümunə ola bilər", - deyə Prezident bildirib.

Azərbaycanın bütün bu layihələri daxili imkanları hesabına həyata keçirməsi xüsusi əhəmiyyət daşıyır və qürurverici göstəricidir. Artıq bu gün Qarabağ və Şərqi Zəngəzurda 40-dan çox yaşayış məntəqəsinə əhalinin qayıdışı təmin olunub və bu proses ardıcıl şəkildə davam edir. Səksən beş mindən çox azərbaycanlı Qarabağ və Şərqi Zəngəzur bölgələrinə geri qayıdaraq, hazırda bu ərazilərdə yaşayır, işləyir, təhsil alır və özlərinə yeni həyat qurur. Hər bir insanın mənzil hüququna malik olması və bu bölgələrin yenidən qurulması prosesi sürətlə davam etdirilir. Azərbaycan həm digər ölkələrin qabaqcıl təcrübələrindən öyrənməyə, həm də özünün postmünaqişə bərpa və yenidənqurma sahəsində qazandığı unikal təcrübəni, eləcə də qarşılaşdığı çətinlikləri beynəlxalq ictimaiyyətlə bölüşməyə tam hazırdır. Məhz bu düşüncə ilə ölkəmiz Ümumdünya Şəhərsalma Forumuna ev sahibliyi etmək üçün ən uyğun məkanlardan biridir.

### "TARİXİ VƏ MEMARLIQ İRSİNİN QORUNMASI İLƏ ŞƏHƏRLƏRİN MÜASİRLƏŞDİRİLMƏSİ BİR-BİRİ İLƏ UZLAŞMALIDIR"

WUF13-ə ev sahibliyi etmək Azərbaycanın dayanıqlı şəhərsalmanın gələcəyinin formalaşdırılmasında beynəlxalq roluna töhfədir. WUF13-ə ev sahibliyi etmək bizim üçün böyük şərəfdir. Burada 182 ölkə təmsil olunur. Bu isə Azərbaycana göstərilən hörmətin bariz nümunəsidir. Bildiyimə görə, iştirakçıların sayı rekord həddə çatıb. Bu da həm mövzunun nə qədər mühüm olduğunu, həm də ev sahibi ölkənin geniş beynəlxalq əlaqələrə malik olduğunu nümayiş etdirir.

182 ölkədən 40 mindən artıq iştirakçını bir araya gətirən WUF13-ün Bakıda yüksək səviyyədə təşkili diqqəti cəlb edir. 17–22 may tarixlərində "Hər kəs üçün yaşayış yerləri: təhlükəsiz və dayanıqlı şəhərlər və yaşayış məskənləri" mövzusu adı altında keçirilən WUF13 tədbiri minlərlə iştirakçını, o cümlədən dövlət və hökumət başçılarını, nazirlərini, merləri, biznes nümayəndələrini, akademik dairələri və vətəndaş cəmiyyəti təmsilçilərini bir araya gətirib. "Təbii ki, bu forum bizim üçün indiyədək görülən işlər, gələcək planlarımız barədə auditoriyaya və beynəlxalq ictimaiyyətə məlumat vermək, eyni zamanda, tərəfdaşlarımızın təcrübəsindən yararlanmaq baxımından da bir fürsətdir. Çünki iştirak səviyyəsi, dövlət və hökumət başçılarının sayı göstərir ki, bu gün şəhərsalma məsələləri bir çox dünya liderlərinin diqqət yetirdiyi mövzulardan biridir. Mən çıxışımda da qeyd etdiyim kimi, tarixi və memarlıq irsinin qorunması ilə şəhərlərin müasirləşdirilməsi bir-biri ilə uzlaşmalıdır", - deyə Prezident bildirib.

***Zümrüd BAYRAMOVA***

## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Fransa Respublikasının Prezidenti Emmanuel Makron arasında telefon danışığı olub. Bu barədə Prezidentin X sosial media hesabında paylaşım edilib. Paylaşımda deyilir: "Bu gün Prezident Emmanuel Makrondan (@EmmanuelMacron) telefon zəngi aldım. Telefon danışığı zamanı Azərbaycan–Fransa ikitərəfli münasibətlərinin gündəliyində duran məsələləri nəzərdən keçirdik və qarşılıqlı maraq doğuran mövzular ətrafında fikir mübadiləsi apardıq. Biz, həmçinin regional və qlobal prosesləri müzakirə etdik".

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Slovakiya Respublikasının Baş nazirinin müavini, ətraf mühit naziri Tomaş Tarabanı qəbul edib.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Mavriki Respublikasının Prezidenti Daramber Qoxul ilə görüşüb.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının sədri İqor Sergeyenkonu qəbul edib.



# YAP Sədrinin müavini ilə Çinin Azərbaycandakı səfiri arasında görüş keçirilib



***Mayın 21-də Yeni Azərbaycan Partiyasının (YAP) Mərkəzi Aparatında YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ilə Çin Xalq Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Lu Mey arasında görüş keçirilib.***

Görüşdə dövlət başçılarının məqsədyönlü siyasəti nəticəsində Azərbaycan-Çin münasibətlərinin dostluq və hərtərəfli strateji tərəfdaşlıq müstəvisində uğurla inkişaf etdiyi vurğulanıb. Bildirilib ki, iki ölkə arasında konstruktiv siyasi dialoq şəraitində son zamanlar iqtisadi-ticari, nəqliyyat-logistika, təhsil, turizm, mədəni, humanitar və digər sahələrdə əlaqələr daha da genişlənib.

Mayın 17-də Bakıda öz işinə başlayan və Çinin yüksəksəviyyəli nümayəndə heyətinin də təmsil olunduğu BMT-nin Ümumdünya Şəhərsalma Forumunun XIII sessiyasının qlobal urbanizasiya gündəliyi ilə əlaqədar aktual mövzuların müzakirəsi və beynəlxalq müstəvidə dayanıqlı şəhərsalma siyasətinin təşviqi baxımından əhəmiyyəti qeyd olunub. Forum çərçivəsində mayın 18-də Azərbaycan Respublikasının Prezidenti, Yeni Azərbaycan Partiyasının Sədri İlham Əliyev ilə Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçi arasında keçirilən görüşün əhəmiyyəti vurğulanıb. Separatizmin bütün forma və təzahürlərini pisləyən Azərbaycanın “Vahid Çin” siyasətinə, həmçinin Çinin ölkəmizin müstəqilliyinə, suverenliyinə və ərazi bütövlüyünə qətiyyətli dəstəyinin müstəsna önəm daşıdığı qeyd edilib.

Görüş zamanı YAP ilə Çin Kommunist Partiyası (ÇKP) arasında əlaqələrin sürətli inkişafından məmnunluq ifadə olunub. 2024-cü ilin noyabrında hakim partiyalar arasında imzalanmış Əməkdaşlıq memorandumundan irəli gələn vəzifələrin uğurla icra edildiyi bildirilib. 2026-cı il 11-15 may tarixində YAP nümayəndə heyətinin dost ölkəyə səfəri çərçivəsində keçirilən məhsuldar görüşlərin həm partiyalar, həm də dövlətlər arasında münasibətlərin inkişafına xidmət etdiyi vurğulanıb. Təmasların intensivləşdirilməsinin, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsinin və birgə layihələrin həyata keçirilməsinin önəminə diqqət çəkilib.

YAP Sədrinin müavini – Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov səfər zamanı göstərilən yüksək diqqətə və qonaqpərvərliyə görə Çin Kommunist Partiyasının rəhbərliyinə və səfirə təşəkkürünü bildirib. O, əməkdaşlığın dərinləşdirilməsinə hədəflənən qarşılıqlı səfərlərin davamlı xarakter daşıyacağına və birgə fəaliyyət nəticəsində bundan sonra da ardıcıl nailiyyətlərin qazanılacağına inamını ifadə edib.

Səfir Lu Mey YAP nümayəndə heyətinin səfərlə bağlı xoş təəssüratlarının məmnunluq doğurduğunu diqqətə çatdırıb. Çinin Azərbaycanla əməkdaşlığa böyük önəm verdiyini qeyd edən səfir qarşılıqlı əlaqələrin genişləndirilməsi üçün mövcud imkanlardan səmərəli istifadənin vacibliyinə toxunub.

YAP Veteranlar Şurasının üzvü, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) rektoru, akademik Urxan Ələkbərov isə səfər çərçivəsində DİA ilə ÇKP Mərkəzi Komitəsinin Ali Partiya Məktəbi arasında Anlaşma Memorandumunun imzalanmasının dövlət idarəçiliyi və kadr hazırlığı sahəsində əhəmiyyətini nəzərə çatdırıb. Görüşdə cari ildə nəzərdə tutulan tədbirlər, partiyalararası əməkdaşlığın gələcək istiqamətləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# WUF13: iştirakçılar nə deyir, dünya mediası nə yazır...




***İki il ardıcıl COP29 və WUF13 kimi beynəlxalq tədbirlərə ev sahibliyi edən Azərbaycana minlərlə qonaq gəlməklə yanaşı, eyni zamanda bu tədbirlərin keçirildiyi günlər ərzində dünya mediasının da diqqəti ölkəmizdə olur. İştirakçılar arasında Azərbaycana bir neçə dəfə gələn, ilk dəfə gələnlər də olduğu üçün təbii ki, təəssüratlar maraqlı olur.***

Dünya mediası isə harada keçirilməsindən asılı olmayaraq bu cür beynəlxalq tədbirləri gündəm mövzusuna çevirməklə yanaşı, eyni zamanda tədbirin keçirildiyi ölkəni də araşdırır, mövzuya uyğun sahələrə güzgü tutur və münasibət bildirir.

Artıq sabah-mayın 22-də WUF13 öz işini başa çatdıracaq. Bəs minlərlə WUF13 iştirakçısının və dünya mediasının Ümumdünya Şəhərsalma Forumunun 13 sessiyasının Bakıda keçirilməsi ilə bağlı fikirləri nədən ibarətdir, buna nəzər salmağın maraqlı olacağını düşünərək təqdim edirik:

-Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiç: “Hər dəfə Bakıya gələndə böyük dəyişiklik və inkişaf görürəm”.

- Birləşmiş Ərəb Əmirliklərinin energetika və infrastruktur naziri Suhail Al Mazrouei: “Burada qlobal şəhərsalma gündəliyi ilə bağlı vacib məsələlərin müzakirəsi üçün yaxşı imkanlar var”.

-Çin Xalq Respublikası Dövlət Şurasının Baş nazirinin müavini Can Quoçin: “Forumun açılış mərasimində Azərbaycan Prezidentinin çıxışı çox məzmunlu idi”.

- Belarus Respublikası Milli Assambleyası Nümayəndələr Palatasının sədri İqor Sergeyenko:” Şəhərsalma Forumunun 13-cü Sessiyasının açılışında iştirak etdim. Burada şəhərsalmanın mühüm istiqamətləri üzrə müzakirələr aparılır. Nüfuzlu beynəlxalq tədbirlərin keçirilməsi ilə bağlı zəngin təcrübəsi olan Azərbaycanda WUF13 də yüksək səviyyədə təşkil edilib”.

- BMT-nin Məskunlaşma Proqramının (UN-Habitat) icraçı direktoru Anaklaudia Rossbax: “Forumun Bakıda keçirilməsi Azərbaycanın dayanıqlı şəhər inkişafı üzrə qlobal dialoqun təşviqində və regionlararası əməkdaşlığın gücləndirilməsində rolunu əks etdirir”.

- Çindən gələn iştirakçı Menqşu Li forumun beynəlxalq atmosferindən və şəhərin memarlığından təsirləndiyini bildirib: “Bakı çox gözəl və mədəni xüsusiyyətlərlə zəngin şəhərdir”.

-Reddit istifadəçisi, WUF13 qonağı: “Old City-İşərişəhər, Alov qüllələri-Flame Towers, Heydər Əliyev Mərkəzi-Heydar Aliyev Center mütləq görülməlidir”.

Xarici turistlər Bakının tarixi və modern memarlığının vəhdətini xüsusi qeyd edib, şəhəri qonaqpərvər və canlı adlandırıblar. Qonaqlar forum ərazisinə nəqliyyat xidmətlərinin rahat və effektiv təşkil edildiyini bildiriblər.

***

Xarici media qurumları WUF13 və Bakının ev sahibliyi ilə bağlı əsasən təşkilatçılıq, urbanizasiya, “smart city” layihələri və Azərbaycanın beynəlxalq tədbir imkanları barədə yazırlar.

-Euronews: “Bakı qlobal urbanizasiya müzakirələrinin mərkəzinə çevrilir”.

Kanal Azərbaycanın forum üçün geniş hazırlıq gördüyünü, təhlükəsizlik və logistikanın yüksək səviyyədə qurulduğunu vurğulayıb. Məqalədə Bakının “müasir Qafqaz metropolu” kimi təqdim edilməsi diqqət çəkib.

-TRT Haber, Milliyet və digər türk mediaları:

Türkiyə mediası WUF13-də Azərbaycan-Türkiyə əməkdaşlığını, “ağıllı şəhər” və “yaşıl zona” layihələrini ön plana çıxarıb. Xüsusilə Qarabağda həyata keçirilən urbanizasiya layihələri barədə geniş yazılar dərc olunub.

-Dawn, Radio Pakistan və Pakistan mediası:

Pakistan mətbuatı Bakının forumu yüksək səviyyədə təşkil etdiyini yazıb və Azərbaycanın davamlı inkişaf sahəsində liderlik nümayiş etdirdiyini vurğulayıb.

-Anadolu Agency: “Bakı urban gələcəyin müzakirə olunduğu beynəlxalq platformaya çevrildi”. Agentlik forumun iştirakçı sayına və Azərbaycanın beynəlxalq tədbir təcrübəsinə diqqət ayırıb.

-Al Jazeera forum çərçivəsində iqlim dəyişiklikləri, şəhər sıxlığı və sosial mənzil məsələlərinin müzakirəsinə geniş yer verib. Azərbaycanın COP29-dan sonra daha bir böyük beynəlxalq tədbirə ev sahibliyi etməsi vurğulanıb.

-ArchDaily dünyanın məşhur memarlıq platforması Bakının memarlıq transformasiyası, Heydər Əliyev Mərkəzi və yeni urban layihələri barədə ayrıca material yayımlayıb. Bakı “post-sovet şəhər transformasiyasının maraqlı nümunəsi” kimi təqdim olunub.

-The Business Standard: Asiya mediası Azərbaycanın urban inkişaf modelini və infrastruktur layihələrini iqtisadi inkişafla əlaqələndirib.

-UN-Habitat: Rəsmi platforma Bakının forum vasitəsilə “təhlükəsiz, dayanıqlı və inklüziv şəhərlər” mövzusunda beynəlxalq dialoqu genişləndirdiyini bildirib.

***

Xarici sosial media istifadəçiləri və forum iştirakçıları isə ən çox Bakının gecə görüntülərini, İçərişəhər, Dənizkənarı Milli Park, Alov Qüllələri və Heydər Əliyev Mərkəzini paylaşırlar. Bütün bunlar- həm istirakçıların Bakı haqqında fikirləri, həm xarici sosial mediada paytaxtımız haqqında yazılanlar, sosial platformalarda paylaşılanlar bu şəhərin uğurlu şəhərsalma nümunəsi olduğunu təsdiq edir.

***Mətanət Məmmədova***



# Putinin Çində "suya düşən" ümidləri...

## Pekin Moskva ilə yeni qaz müqaviləsindən imtina etdi

***Çin və Rusiya Trampın yerüstü və kosmik raket tutma sistemi planını "qlobal strateji sabitliyə təhdid" adlandırıblar. Çin lideri Si Cinpin və Kreml lideri Vladimir Putin Pekində keçirilən sammitdə ABŞ siyasətini birgə tənqid etsələr də, yeni böyük qaz layihəsi barədə razılığa gələ bilməyiblər.***

Birgə bəyanatda iki tərəf Vaşinqtonun "Qızıl günbəz" raketdən müdafiə sistemi planlarını və Amerikanın nüvə siyasətini tənqid edərək, bunu strateji sabitliyə təhdid adlandırıblar.Sənəddə həmçinin ABŞ və Rusiyanın nüvə arsenalını məhdudlaşdıran müqavilələrin müddətinin bitməsi qeyd olunub, çünki Trampın Moskvanın müqaviləni daha bir il uzatmaq təklifinə cavab vermədiyi bildirilir. Si və Putin ayrıca olaraq, ölkələrin 2022-ci ildə Rusiyanın Ukraynaya tammiqyaslı hücumundan üç həftədən az müddət əvvəl strateji tərəfdaşlıq müqaviləsinin imzalanması ilə möhkəmləndirdiyi yaxın Rusiya-Çin əlaqələrini vurğulayıblar. Eyni zamanda, tərəflər əsas enerji müqaviləsi - "Sibir Gücü 2" qaz kəmərinin tikintisi barədə razılığa gələ bilməyiblər.Layihə Monqolustan vasitəsilə ildə 50 milyard kubmetrə qədər qazın çatdırılmasını nəzərdə tutur, lakin qiymətlər və şərtlər hələ də həll olunmayıb. Kreml "layihənin parametrləri haqqında ümumi anlayış" olduğunu bildirib, lakin yekun razılaşma və ya müddət müəyyən edilməyib. Çin boru kəməri danışıqlarının təfərrüatları ilə bağlı ictimaiyyətə az şərh verib.Səfər zamanı tərəflər həmçinin çoxqütblü dünya nizamına sadiqliklərini təsdiqləyiblər və enerji əməkdaşlığını genişləndiriblər, baxmayaraq ki, əsas kommersiya parametrləri hələ də həll olunmayıb. Xatırladaq ki, "Qızıl Günbəz" raketdən müdafiə sistemi dörd təbəqədən - biri kosmik, üçü isə yerüstü - ibarət olacaq və Alyaska və Havay da daxil olmaqla, ABŞ-da 11 qısa mənzilli batareya yerləşdiriləcək.

### Putinin Si ilə danışıqlarda əsas məqsədi

Danışıqlardan sonra Moskva və Pekin. Lakin heç bir sənəddə nə "Sibir Gücü 2"-dən, nə də neft-qaz sektorunda əməkdaşlıqdan bəhs edilməyib. Rusiya prezidenti Vladimir Putinin Pekinə səfəri zamanı Çin lideri Si Cinpinlə 40 sənəd imzalansa da, "Sibir Gücü 2" qaz kəmərinin tikintisi ilə bağlı razılığa gəlmək mümkün olmayıb.Beləliklə, Moskva və Pekinin 10 ildən çoxdur müzakirə etdiyi və Çinə qaz tədarükünün ildə 100 milyard kubmetrə qədər artırılmasını nəzərdə tutan layihədə hələ də bəzi həll olunmamış "nüanslar" var, Kremlin mətbuat katibi Dmitri Peskov Putinin Si ilə danışıqlarından sonra bildirib. "Bəzi nüanslar hələ də razılaşdırılmalıdır", - deyə o, əlavə edib ki, "əsas anlaşma parametrləri" və gələcək boru kəmərinin marşrutu razılaşdırılıb, lakin əvvəlki kimi layihənin həyata keçirilmə müddəti ilə bağlı dəqiq bir razılaşma yoxdur. "Hələlik aydın deyil. Axı bu, kommersiya məlumatıdır. Amma bu, olduqca əhəmiyyətli bir nailiyyətdir", - deyə Peskov bildirib.Daha əvvəl mediada qeyd edildiyi kimi, qazın qiyməti Avropa bazarının itirilməsi fonunda "Qazprom"un çox ehtiyac duyduğu yeni qaz kəməri üçün maneə olaraq qalır. Mənbələrə görə, Çin qiymətin Rusiya daxili qiymətinə yaxın bir səviyyəyə endirilməsini tələb edir. Bu, təxminən min kubmetr üçün 50 dollardır ki, bu da Pekinin hazırda ödədiyi qiymətdən (min kubmetr üçün 258 dollar) beş dəfə, "Qazprom"un xaricdəki digər müştərilər üçün ödədiyi qiymətdən (420 dollar) isə 8,5 dəfə aşağıdır. Çin hazırda Rusiyadan hər il 38 milyard kubmetr qaz alır - bu, "Qazprom"un xarici ölkələrə ixracının yarısıdır və bu, 1980-ci illərin sonlarından bəri ən aşağı səviyyələrə yaxınlaşır. Onilliyin sonuna qədər Rusiya hökuməti Çinə tədarükü 47% artıraraq ildə 56 milyard kubmetrə çatdırmağı gözləyir. Əlavə qaz Uzaq Şərq marşrutu (+12 milyard kubmetr) və "Sibir Gücü-1" boru kəmərinin genişləndirilməsindən (+6 milyard kubmetr) gələcək.Xatırladaq ki, Vladimir Putinin Si Cinpinə səfərindən əvvəl Rusiya Çin üçün qaz qiymətini altı illik minimuma endirib. Bu arada, Moskva "Sibir Gücü-2" boru kəmərinin onilliyin sonuna qədər fəaliyyətə başlamayacağını proqnozlaşdırır.

### Nə tərəfdaş, nə müttəfiq

Si və Putin ABŞ prezidenti Donald Trampın Çinə rəsmi səfərindən bir neçə gün sonra danışıqlar aparıblar. Pekindəki görüşləri zamanı Çin lideri Si Cinpin və Rusiya prezidenti Vladimir Putin Vaşinqtona qarşı vahid cəbhə elan edərək qlobal miqyasda "cəngəllik qanununa" qayıdış barədə xəbərdarlıq ediblər. Birgə bəyanatda Çin və Rusiya ABŞ prezidenti Donald Trampın 175 milyard dollarlıq Qızıl Günbəz müdafiə sistemi qurmaq planlarını tənqid ediblər. Raketdən müdafiə sistemi qlobal əhatə dairəsini nəzərdə tutur. Onun fiziki komponentləri həm kosmosda (erkən xəbərdarlıq peykləri, sensorlar və tutucular), həm də yerdə (ABŞ və Kanadada stasionar raket batareyaları) yerləşdiriləcək.

### Görüş necə keçdi

Danışıqlardan əvvəl Rusiya prezidentinə Tiananmen Meydanında fəxri qarovul dəstəsi ilə rəsmi qarşılama mərasimi keçirilib. Danışıqların özü Xalqın Böyük Zalında baş tutub. Çin dövlət mediasının məlumatına görə, Si Cinpin və Vladimir Putin hazırda Pekindəki görüşlərini ziyafətlə başa vururlar. Rusiya liderinin bir neçə saatdan sonra Çini tərk etməsi gözlənilir. Həmçinin Putinin noyabr ayında Asiya-Sakit Okean İqtisadi Əməkdaşlıq Təşkilatının (APEC) illik sammitində iştirak etmək üçün Çinə qayıdacağı açıqlandı.

Sammitin bəzi əsas məqamları bunlardır:

Çin və Rusiya 20-dən çox ticarət və texnologiya müqaviləsi, eləcə də "çoxqütblü dünya nizamı" haqqında bəyannamə imzaladılar. Onlar həmçinin ABŞ-ın hərbi əməliyyatlarını və Trampın "Qızıl günbəz" müdafiə qalxanı planlarını tənqid edən uzun birgə bəyanat yaydılar.Hörmüz boğazına istinad edərək, Çin və Rusiya ölkələri beynəlxalq ticarət və təchizat zəncirlərinə "birtərəfli" müdaxiləni dayandırmağa çağırdılar. Si bildirib ki, Çin və Rusiya "daha ədalətli və ağlabatan qlobal idarəetmə sisteminin" təşviqinə diqqət yetirməlidirlər, Putin isə münasibətlərində "həqiqətən görünməmiş bir səviyyəyə çatdıqlarını" bildirib. Çin ruslar üçün vizasız səyahət müddətini 2027-ci ilin sonuna qədər uzadıb. Rusiya vətəndaşları artıq ölkəyə 30 günə qədər vizasız daxil ola bilərlər.

### Ukraynaya qarşı müharibə

Si və Putinin görüşündən əvvəl Rusiya prezidentinin köməkçisi Yuri Uşakov tərəflərin qapalı çay görüşü zamanı beynəlxalq məsələləri, xüsusən də "Ukrayna, İran və ABŞ ilə münasibətləri" müzakirə edəcəklərini açıqlayıb. Daha sonra Putini salamlayan Çin prezidenti mövcud beynəlxalq vəziyyətin "mürəkkəb və qeyri-sabit" olduğunu, "hər yerdə birtərəfli hegemoniyanın hökm sürdüyünü" bildirib. O, Yaxın Şərqdəki döyüşlərin dayandırılmasının "zəruretini" açıq şəkildə elan edib, lakin Ukraynadan heç bir söz deməyib.Qeyd etmək lazımdır ki, çərşənbə axşamı Almaniya kansleri Fridrix Merts Si-nin Putini "Ukraynada qazana bilmədiyi bu müharibəyə son qoymağa" inandıracağına ümid etdiyini bildirib. "Hazırda Rusiya ilə Çin arasında strateji münasibətlərdə fundamental bir dəyişiklik gözləmirik. Lakin təbii ki, bu səfəri Prezident Si-nin Putini Ukraynada qazana bilmədiyi bu müharibəyə son qoymağa çağıracağı ümidi ilə əlaqələndiririk. Əksinə, bu, Rusiyaya hər gün ağır insan itkiləri verən bir müharibədir", - deyə o, jurnalistlərə bildirib.Si Putinin diqqətini İrandakı müharibəyə yönəldib, lakin Ukrayna məsələsindən yayınıb. Pekin Ukraynaya qarşı bu müharibədə neytral mövqe tutmağa çalışırdı. Eyni zamanda, İrandakı münaqişə Çinin maraqlarına zərər verməsi ilə fərqlənir. Pekinin neft ehtiyatları var, lakin Hörmüz boğazını bağlayan böhranın sonu görünmür. Lakin, bir müharibənin digərinə qarşı dayandırılmasını tələb etməklə, Si Çinin qlobal səhnədə daha mərkəzi rol oynamağa çalışdığı üçün onun nüfuzuna xələl gətirmək riski daşıyır. Bu mövqe həmçinin liderləri uzun müddətdir ki, Pekinin Rusiyaya iqtisadi dəstəyini dayandırmasını tələb edən Avropa ilə münasibətləri təhlükə altına qoyur.Çin və Rusiya arasında fikir ayrılığı yarandıqda, münasibətlərinin əsasını təşkil edən sadə həqiqət aydın olur. Aralarında rəsmi ittifaq olmadığı üçün heç bir ölkə digərinin ardınca getməməlidir. Bu, ittifaq deyil, çevik strateji tərəfdaşlıqdır.

***V.VƏLİLİ***

# Paşinyan İrəvanda "Qarabağ kartı"nı birdəfəlik BASDIRIR...

***"Artıq tam əminliklə demək olar ki, İrəvanda seçki gərginliyi pik həddə çatıb. Seçki marafonundakı proseslər və erməni ictimai rəyi göstərir ki, hazırkı baş nazir öz rəqiblərini – keçmiş separatçıları, "Qarabağ kartı" üçün yenidən ortaya atılan siyasi faşistləri birdəfəlik siyasət səhnəsindən süpürüb atmaq üçün gün sayır. Nikol Paşinyanın bölgələrdə təşkil etdiyi seçki marafonları, cəmiyyətin ona münasibəti və hazırkı baş nazirin keçmiş separatçılara qarşı açıq hücum taktikası, onları sadə ermənilərin gözündən salan həqiqətləri uca səslə dilə gətirməsi iyun seçkilərinin revanşist müxalifət üçün son seçki olacağına tam əminlik yaradddır".***

Bu barədə SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, Rusiyanın İrəvandakı revanşistləri hərəkətə gətirmək üçün bütün cəhdləri açıq şəkildə fiaskoya uğrayıb. "Əslində Moskva bu seçkilərdə bəri başdan uduzmuşdu. Çünki Robert Koçaryan və Serj Sarkisyan kimi ermənilərin nifrətlə yanaşdığı revanşist faşistlərə yenidən "stavka" etməklə Moskva çarəsiz duruma düşüb. Rusiya N.Paşinyanla mübarizəyə ona sadiq və erməni siyasətində yenilikçi olacaq yeni siyasi qüvvələr çıxara bilmədi.



*Mətləb Salahov: "İyun seçkiləri həm də Ermənistan siyasətinin özündə yeni bir dövrün başlanğıcı olacaq"*

Rusiya vətəndaşı olan milyarder Karapetyanı siyasətə sürükləmək cəhdləri elə ilk gündən uğursuz oldu. Bir həqiqət odur ki, Kreml Ermənistanda Rusiyameyilli yeni nəsil siyasi qüvvələr formalaşdıra bilmədi. N.Paşinyan seçki marafonundakı son insidentdə keçmiş Qarabağ klanına və tör-töküntülərinə qarşı ucadan səslətdirdiyi həqiqət dolu təhqir və hədələr həm də erməni cəmiyyəti üçün "Qarabağ kartının" bitdiyini açıqca ortaya qoydu. Məncə, iyun seçkiləri həm də Ermənistan siyasətinin özündə yeni bir dövrün başlanğıcı olacaq".

***Afət Tahirqızı***

# Azərbaycanın çay mədəniyyəti – gündəlik vərdişdən sosial kimliyə çevrilən ənənə

ARAŞDIRMA

*Azərbaycanın çay mədəniyyəti sadəcə içki vərdişi deyil, sosial münasibətlərin, qonaqpərvərliyin və gündəlik ünsiyyətin əsas elementlərindən biridir. Çay süfrəsi ailə görüşlərindən tutmuş rəsmi qonaqlıqlara qədər hər mərhələdə öz yerini qoruyur və çox vaxt söhbətin başlanğıc nöqtəsinə çevrilir. Tarixən Qafqaz və Şərq mədəniyyətlərinin kəsişməsində yerləşən Azərbaycan çay mədəniyyətini həm İran, həm Rusiya, həm də yerli ənənələrlə sintez edərək unikal formaya salıb. SİA mövzu ilə bağlı araşdırma edib.*



### Çay Azərbaycana necə gəlib?

Çay Azərbaycanda geniş şəkildə XIX əsrin sonu – XX əsrin əvvəllərində yayılmağa başlayıb. Xüsusilə Rusiya imperiyası dövründə çay idxalı artdıqca, içki tədricən şəhər və kənd həyatına daxil olub. Lakin maraqlı məqam odur ki, çay burada təkcə içki kimi yox, sosial ritual kimi formalaşıb. Yəni məqsəd yalnız susuzluğu yatırmaq deyil, ünsiyyət və qonaqpərvərlik mədəniyyətini gücləndirmək olub.

### Azərbaycan çay süfrəsinin əsas xüsusiyyəti nədir?

Azərbaycan çay süfrəsi Avropa ölkələrindən fərqli olaraq "tez içilən içki" mədəniyyəti deyil. Burada çay:

uzun söhbətlərin müşayiətçisi qonaqlığın açarı ailə birliyinin simvolu kimi qəbul edilir. Çox vaxt çay süfrəsi yeməkdən sonra deyil, söhbətin özü üçün təşkil olunur.

### Armudu stəkanın simvolik mənası nədir?

Azərbaycan çay mədəniyyətinin ən tanınan elementlərindən biri armudu stəkandır. Onun xüsusi forması təkcə estetik deyil, funksional məqsəd daşıyır.

Armudu stəkan:

çayın tez soyumamasına kömək edir yuxarı hissəsi daha tez soyuyur, aşağı hissə isti qalır içki miqdarını balanslaşdırır

Bu forma artıq milli identikliyin bir hissəsinə çevrilib.

### Çay süfrəsində nə verilir?

Azərbaycan çay süfrəsi adətən zəngin olur. Burada çay tək təqdim edilmir, onun yanında müxtəlif şirniyyatlar və əlavələr olur: mürəbbələr (xüsusilə gilas, heyva, qoz) quru meyvələr və çərəzlər paxlava, şəkərbura və digər şirniyyatlar limon və bəzi bölgələrdə süd

Bu zənginlik qonağa hörmətin göstəricisi sayılır.

### Çay mədəniyyəti sosial münasibətlərdə nə rol oynayır?

Azərbaycanda çay: barışdırıcı söhbət açıcı münasibətləri yumşaldan vasitə kimi qəbul edilir.

Bir çox ailə və dost görüşləri "çaya dəvət" ilə başlayır. Bu, formal görüşlərdən fərqli olaraq daha səmimi ünsiyyət yaradır.

### Çayxanalar nə üçün vacib sosial məkandır?

Ənənəvi çayxanalar xüsusilə kişilər arasında sosial ünsiyyət mərkəzi kimi formalaşıb. Burada: gündəlik xəbərlər müzakirə olunur sosial əlaqələr qurulur boş vaxt keçirilir

Bəzi bölgələrdə çayxanalar hələ də sosial həyatın mühüm hissəsidir.

### Müasir dövrdə çay mədəniyyəti necə dəyişib?

Son illərdə: kafelərin artması qlobal içki mədəniyyətinin təsiri sürətli həyat tərzi çay mədəniyyətini qismən dəyişib.

Lakin maraqlıdır ki, Azərbaycan çayı öz yerini qoruyub və hətta "premium qonaqpərvərlik elementi" kimi daha da dəyər qazanıb.

### Çay mədəniyyəti regionlar üzrə fərqlənirmi?

Bəli, bəzi fərqlər var:

Bakı və şəhərlərdə çay daha çox kafelərdə və müasir formatda içilir bölgələrdə isə ev çay süfrələri daha ənənəvi və uzunmüddətli olur cənub bölgələrində daha çox mürəbbə və şirinliklərlə təqdim edilir

Bu fərqliliklər mədəni zənginliyi göstərir.

### Çay mədəniyyəti turizm üçün niyə vacibdir?

Azərbaycanı ziyarət edən turistlər üçün çay süfrəsi:

milli mədəniyyətlə tanışlıq imkanı qonaqpərvərliyin real təcrübəsi yerli həyat tərzinin hiss edilməsi kimi dəyərləndirilir.

Bu səbəbdən çay mədəniyyəti mədəni turizmin vacib hissəsinə çevrilib.

Hazırda yerli istehsal daha çox:

Lənkəran-Astara zonasında kiçik təsərrüfatlar ailə biznesləri yerli bazara yönəlmiş emal müəssisələri şəklində inkişaf edir. Bu isə çayın həm kənd iqtisadiyyatına, həm də məşğulluğa təsirini artırır.

### Azərbaycan çayı ilə idxal çayları arasında nə fərq var?

Azərbaycan bazarında həm yerli, həm də idxal çayları geniş yayılıb. Lakin istehlakçı davranışında maraqlı fərqlər müşahidə olunur.

Yerli çay:

daha yumşaq və təbii dadı ilə seçilir çox vaxt "ənənəvi Azərbaycan çayı" kimi təqdim olunur ev qonaqlıqlarında üstünlük təşkil edir İdxal çayları isə: daha güclü aroma və rəngə malik olur paket çay formasında geniş yayılıb sürətli istehlak üçün seçilir Bu fərq həm zövq məsələsidir, həm də mədəni vərdişlərin nəticəsi kimi formalaşıb.

### Çay mədəniyyəti ailə münasibətlərinə necə təsir edir?

Azərbaycan cəmiyyətində çay süfrəsi çox vaxt ailə daxilində ünsiyyətin əsas platformasıdır. Günün sonunda ailə üzvlərinin bir masa ətrafında toplaşması və çay içərək söhbət etməsi emosional bağları gücləndirir.

Xüsusilə: böyük ailə görüşlərində qohum ziyarətlərində bayram günlərində çay süfrəsi sosial əlaqələri möhkəmləndirən ritual funksiyasını yerinə yetirir.

Bəzi sosial tədqiqatlara görə, bu cür gündəlik kiçik ünsiyyət formaları ailədaxili konfliktlərin azalmasına və emosional sabitliyə müsbət təsir göstərə bilər.

### Müasir gənclər çay mədəniyyətini necə dəyişir?

Son illərdə gənclər arasında çay istehlakı tamamilə yox olmayıb, lakin forması dəyişib. Ənənəvi ev çay süfrələrinin yerini daha çox:

kafelər takeaway çay mədəniyyəti müxtəlif ətirli çaylar (yaşıl çay, bitki çayları) tutur.

Bununla yanaşı, sosial media da çay mədəniyyətinə yeni vizual dəyər qazandırıb. Estetik təqdimat, armudu stəkanın "retro" imici və çay süfrələrinin foto mədəniyyəti bu ənənəni yenidən populyarlaşdırır.

### Çay mədəniyyəti niyə dəyişsə də, tam yox olmur?

Ən maraqlı məqam ondan ibarətdir ki, çay mədəniyyəti forma dəyişsə də, mahiyyətini qoruyur. Çünki çay Azərbaycanda: sadəcə içki deyil sosial ünsiyyət vasitəsidir qonaqpərvərlik simvoludur.

Bu səbəbdən texnologiya, urbanizasiya və qlobal mədəniyyət təsirlərinə baxmayaraq, çay süfrəsi hələ də gündəlik həyatın bir hissəsi olaraq qalır. Azərbaycanın çay mədəniyyəti sadəcə içki ənənəsi deyil, sosial həyatın, qonaqpərvərliyin və milli kimliyin vacib elementidir. Armudu stəkandan tutmuş mürəbbəli süfrəyə qədər hər detal bu mədəniyyətin dərinliyini göstərir. Bu gün müasir dəyişikliklərə baxmayaraq, çay Azərbaycan cəmiyyətində həm ənənə, həm də gündəlik ünsiyyətin ən səmimi forması olaraq qalır.

***Günel Fərzəliyeva***

## Bakıda əsas problem nədir - yol çatışmazlığı, yoxsa nəqliyyatın düzgün idarə olunmaması?



EKSPERT AÇIQLADI

Bakıda keçirilən Ümumdünya Şəhərsalma Forumunun 13-cü sessiyası çərçivəsində rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev şəhər nəqliyyatının gələcəyi ilə bağlı mühüm fikirlər səsləndirib. O bildirib ki, dünya təcrübəsi göstərir sadəcə yeni yollar tikmək tıxac problemini tam həll etmir. Nazir vurğulayıb ki, əsas yanaşma ictimai nəqliyyatın bir-birini tamamlayan sistem kimi qurulması və hərəkət vaxtının azaldılmasıdır. Bütün bu yanaşmalar fonunda əsas sual yaranır-şəhər nəqliyyatında real rahatlıq üçün hansı addımlar daha effektiv ola bilər?

Bakıda əsas problem yol çatışmazlığıdır, yoxsa nəqliyyatın düzgün idarə olunmaması? Taksi sayının azaldılması şəhərdə vəziyyəti yaxşılaşdıra bilərmi? Məsələ ilə bağlı nəqliyyat eksperti Aslan Əsədov SİA-ya açıqlamasında bildirib ki, şəhər nəqliyyatının şaxələndirilməsi birmənalı olaraq vacibdir:

"Bunların hamısı paralel şəkildə həyata keçirilməlidir. Yəni, təkcə şəhər nəqliyyat infrastrukturu deyil, yollar da inşa olunmalı, avtobuslar paylanmalı və şaxəli koordinasiya sistemi qurulmalıdır. Yəni, sərnişinlərin və ya şəxslərin bir yerdən digərinə gediş-gəlişini təmin etmək üçün xüsusi zolaqlar, xüsusi hərəkət qrafikləri və tam təchiz edilmiş şəhər infrastrukturu istifadəyə verilməlidir.

Məsələn, bu gün avtobusların yollarda hərəkəti zamanı nəqliyyat vasitələrinin idarə olunması birbaşa yol şəbəkəsi və nəqliyyat vasitələri arasında koordinasiyanın təşkilindən ibarət olmalıdır. Hər hansı bir şəxs hərəkət etdiyi zaman onun yolda keçirdiyi müddət azalmalıdır. Yəni, insan A məntəqəsindən B məntəqəsinə gedirsə, onun yolda olma müddəti minimum olmalıdır. Məsələn, mən evdən çıxmışam və işə, məktəbə və ya digər fəaliyyət istiqamətinə gedirəm. Hər hansı fəaliyyət üçün müəyyən bir məsafə qət etməliyəm və həmin məsafənin qət olunmasına sərf edilən vaxt mümkün qədər az olmalıdır.

Yəni, məqsəd insanların yollarda daha az vaxt keçirməsini təmin etməkdir. Bu və digər yollarla koordinasiyalı və informasiya əsaslı nəqliyyat sistemindən danışmaq mümkündür. Əks halda, bunlar həllini tapmayan məsələlər sırasında qalmağa davam edəcək.

***Arzu Qurbanlı***



# Azərbaycanda insan hüquq və azadlıqları bütövdür, toxunulmazdır

***Azərbaycanda əhalini təhlükəsiz, sosial-iqtisadi cəhətdən daha təminatlı yaşaması üçün hər cür imkanlar yaradılıb, qanunlar qəbul edilib, Prezident Fərmanları, Sərəncamları imzalanıb. Bu baxımdan ölkəmiz dünyanın ən azad, demokratik dövlətləri sırasında öncül yerlərdən birində qərarlaşır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dövlət siyasətinin təməlində vətəndaş mövqeyinin əhəmiyyətini vurğulamaqla, cəmiyyətdə hər bir vətəndaşın, hər bir insanın qənaətə gəldiyi rəyə dövlətin münasibətinin hiss edilməsini bildirmişdir: "Azərbaycan dövləti sosial dövlətdir, çünki siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır.***

Bu gün də belədir, gələcəkdə də belə olacaqdır. Bizim bütün işimizin mərkəzində, təməlində Azərbaycan vətəndaşı dayanır və Azərbaycan vətəndaşının rahat rifah içində yaşaması bizim başlıca borcumuzdur".

Nüfuzlu beynəlxalq təşkilatların, aparıcı dövlətlərin vurğuladığı kimi Azərbaycanda insan hüquq və azadlıqları ən yüksək səviyyədə təmin olunur. 1993-cü il də Ümummilli Lider Heydər Əliyevin xalqın çağırışı ilə ikinci dəfə hakimiyyətə gəlişindən sonra bütün sahələr də olduğu kimi insan hüquq və azadlıqlarının təmin olunması ən ümdə məsələlərdən olmuşdur. Aparılna düzgün, məqsədyönlü siyasət nəticəsində demokratik cəmiyyət quruculuğuna nail olunmaqla insan hüquqlarının ən yüksək səviyyədə təmin olunmuşdur. Ulu Öndər Heydər Əliyev hələ Konstitusiya layihəsinin hazırlanması zamanı demişdir: "Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir konstitusiya qəbul etməliyik ki, o müstəqil Azərbaycan Respublikasında demokratik prinsiplə, əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun. Hakimiyyət bölgüsü - ali icra, qanunvericilik, məhkəmə hakimiyyəti - bunlar hamısı xalqın iradəsinə söykənməli, seçkilər yolu ilə təmin olunmalıdır".

Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasət Azərbaycanın hər bir vətəndaşına azad, sərbəst yaşamaq hüquqlarını təmin etmək və öz rifahını yaxşılaşdırmaq imkanları yaratmaqdan ibarət olmuşdur. Ulu Öndərimiz Heydər Əliyevin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə insan hüquqlarının müdafiəsi sahəsində Dövlət Proqramı təsdiq olunmuşdur. Dövlət proqramı çərçivəsində qanunvericilik və institusional islahatlar həyata keçirilmişdir. Demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sistemi, konstitusiya nəzarəti, insan hüquqları üzrə müvəkkil kimi yeni təsisatlar yaradılmış, hüquq mühafizə fəaliyyəti təkmilləşdirilmiş, qeyri-hökumət təşkilatlarının, kütləvi informasiya vasitələrinin fəaliyyəti genişlənmiş, insan hüquqlarının təmini sahəsində effektiv müdafiə mexanizmləri formalaşdırılmışdır. Ümummilli Liderin rəhbərliyi ilə hazırlanan və 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi ilə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə yanaşı, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmışdır. Konstitusiyada əksini tapmış bu strateji məqsəd, ilk növbədə, hüquqi islahatları və insan haqlarının qorunması prinsipinin real həyatda tətbiqini zəruri etmişdir. Konstitusiyanın qəbulundan sonra Azərbaycanda hüquqi islahatların keyfiyyətcə yeni mərhələsi başlanmış, yeni qanunvericilik aktları hazırlanaraq qəbul edilmişdir.

Konstitusiyanın III fəsli, bütövlükdə, yəni 48 maddə insan hüquq və azadlıqlarına həsr olunmuşdur. Əsas Qanunun 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına təminat verilir, bu hüquqları və azadlıqları qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının qarşısında mühüm vəzifə kimi qoyulur. İnsan şəxsiyyətinə və ləyaqətinə hörmət, dövlət hakimiyyət orqanlarının demokratik qaydada formalaşması vasitəsilə xalqın hakimiyyət funksiyasının həyata keçirilməsində iştirakı, insan hüquqlarının səmərəli müdafiəsi mexanizmlərinin mövcudluğu, ümumbəşəri dəyərlərə sadiqlik, milli qanunvericiliyin beynəlxalq hüquqa uyğunlaşdırılması və bu kimi digər məsələlər Əsas Qanunumuzun mahiyyətini təşkil edir. Milli və ümumbəşəriliyin vəhdətini özündə əks etdirən Azərbaycan Konstitusiyası dünyanın bütün demokratik ölkələrinin təcrübəsinə əsaslanmaqla yanaşı, həm də milli xüsusiyyətləri də nəzərə almışdır. Konstitusiyamızın üçdəbirini təşkil edən "Əsas insan və vətəndaş hüquqları və azadlıqları" fəslində əksini tapdı. Sonradan bu sahədə ardıcıl iş davam etdirilərək, Konstitusiyanın özü daha da təkmilləşdirildi.



Dahi Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu siyasəti uğurla davam etdirən ölkə Prezidenti İlham Əliyevin yürütdüyü iqtisadi, siyasi və hüquqi islahatların əsasında da məhz insan və vətəndaş hüquq və azadlıqlarının təmini məsələsi dayanır. Dövlət başçısının 28 dekabr 2006-cı il tarixli sərəncamı ilə "Azərbaycan Respublikasında İnsan Hüquqlarının Müdafiəsi üzrə Milli Fəaliyyət Planı" təsdiq edilmişdir. Bu sənəd insan hüquqlarının təmin edilməsi prosesinin keyfiyyətcə yeni müstəviyə keçməsinə, universal və regional səviyyədə yeni əməkdaşlıq strategiyasının qurulmasına, dövlətlə vətəndaş cəmiyyəti arasında tərəfdaşlıq münasibətlərinin yaradılmasına xidmət etmişdir. Azərbaycan Prezidenti İlham Əliyevin həyata keçirdiyi möhtəşəm islahatlar nəticəsində demokratik vətəndaş cəmiyyəti, hüquqi və dünyəvi dövlət quruculuğu konstitusiyası, bazar münasibətlərinə əsaslanan güclü iqtisadiyyat, balanslaşdırılmış xarici siyasət və digər sahələrdə mütərəqqi uğurlar əldə olunmuşdur. Azərbaycan Respublikası insan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirmiş, insan hüquqlarının müdafiəsi sahəsində 50-dən çox beynəlxalq sənədə tərəfdar çıxmış və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə etmişdir.

İnsan azadlıqlarına yüksək dəyərin nəticəsi olaraq ölkə Prezidenti, Cənab İlham Əliyevin Fərmanı ilə əfv qərarları verilir. 2025-ci ilin dekabrında "Konstitusiya və Suverenlik İli" çərçivəsində sayca 13-cü olan bu amnistiya aktı imzalanmışdır. Bu amnistiya aktı ümumilikdə 22 min 935 şəxsə şamil edilib. Dövlətin humanizm siyasətinin növbəti təzahürü olan bu qərar tətbiq olunan şəxslərin sayına görə indiyədək qəbul edilmiş ən geniş amnistiyadır. Amnistiya tətbiq olunan şəxslərin 5348-i müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasından azad edilib. Bundan əlavə, azadlıqdan məhrumetmə cəzasına məhkum olunmuş 3555 nəfərin cəzasının çəkilməmiş müddəti 6 ay azaldılıb.

Azadlıqdan məhrumetmə ilə əlaqədar olmayan cəzalara məhkum edilmiş 9714 şəxsə də amnistiya tətbiq olunub. Belə ki, azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş 7970, islah işləri cəzasına məhkum olunmuş 734, ictimai işlər cəzasına məhkum edilmiş 82, cərimə cəzasına məhkum olunmuş 741, hərbi xidmət üzrə məhdudlaşdırma cəzasına məhkum edilmiş 175, intizam xarakterli hərbi hissədə saxlama cəzasına məhkum olunmuş 12 şəxs bu cəzalardan azad edilib. Eyni zamanda, şərti məhkum edilmiş, cəzasının çəkilməsi təxirə salınmış və cəzadan şərti olaraq vaxtından əvvəl azad edilmiş 1059 məhkum barəsində də amnistiya tətbiq olunub.

Həmçinin məhkəmələrin icraatında olan işlər üzrə 1676, ibtidai istintaq və təhqiqat orqanlarının icraatında olan işlər üzrə isə 1583 olmaqla, ümumilikdə 3259 şəxs cinayət məsuliyyətindən azad edilib.

İnsan hüquqları aylığı çərçivəsində "Milli Fəaliyyət Proqramı"nın müddəalarına əsaslanmaqla, ölkəmizin bütün regionlarında dövlət qurumları, QHT və KİV-lər, beynəlxalq təşkilatlar, icmalar tərəfindən insan hüquqlarının effektiv müdafiəsinə yeni mərhələ açan, əhalinin müxtəlif qruplarını əhatə etməklə insan hüquqlarını təbliğ edən mövzularda müxtəlif maarifləndirmə tədbirləri və müzakirələr təşkil olunur.

Bir sözlə, ölkəmizdə aparılan islahatlar və həyata keçirilən siyasət bir daha təsdiq edir ki, Azərbaycan hüquqi, demokratik dövlət quruculuğuna, insan, hüquq və azadlıqlarının ən yüksək səviyyədə müdafiəsinə sadiqdir. Bu prinsip və siyasət bundan sonra da davam etdiriləcək.

**İ.ƏLİYEV**



**Elçin Bayramlı**

## Urbanizasiyanın məhv etdiyi dəyərlərimizdən biri

***Şəhərləşmə prosesi sürətləndikcə böyük şəhərlərdə insanların həyat tərzi də köklü şəkildə dəyişir. Meqapolislərdə artan sıxlıq, çoxmərtəbəli yaşayış binaları və daimi köç prosesi insanlar arasında təbii ünsiyyətini zəiflədir. Nəticədə əvvəllər cəmiyyətin əsas sosial dayaqlarından biri olan qonşuluq münasibətləri tədricən formal xarakter alır və bir çox hallarda tamamilə yoxa çıxır. Bu vəziyyət isə insanların eyni məkanda yaşayıb, lakin bir-birinə yad qalması kimi yeni sosial reallıq yaradır və bir sıra ciddi sosial nəticələr doğurur.***

Şəhərləşmə tendensiyası bir çox sosial institutları zəiflədib. Onlardan biri də qonşuluq münasibətləridir. Qonşuluq münasibətləri əsas sosial institutlardan biridir və tarix boyu insanlar min illərdir bu formada yaşayıblar. Möhkəm qonşuluq əlaqələri olub, qarşılıqlı yardım, dəstək, xeyirdə və şərdə bir birinə kömək etmək, müxtəlif məsələləri birgə həll etmək kimi ənənələr formalaşıb.

Lakin bu ənənələr tədricən zəifləyir. Çoxmərtəbəli binalarda qonşular bir birini tanımır, hətta bəzi hallarda eyni mərtəbədə yaşayanlar belə bir birini tanımır və salamlaşmırlar. Bu proses insanların fərdiləşməsinin artması, ünsiyyətin azalması və sosial təcridin güclənməsi ilə bağlıdır. Nəticədə elə hallar yaranır ki, bir insanın evdə dünyasını dəyişdiyi uzun müddət bilinmir, nə qonşuların, nə də yaxın ətrafın xəbəri olur.

Bu tendensiya təkcə bir ölkəyə aid deyil, qlobal xarakter daşıyır. Bəzi ölkələrdə ənənəvi dəyərlər daha çox qorunub saxlanır, bəzilərində isə tamam itib. Bizdə azmərtəbəli və köhnə binalarda qonşuluq münasibətləri hələ də mövcuddur. Amma yeni tikililərdə və hündürmərtəbəli binalarda bu əlaqələr daha çox zəifləyib.

Buna təsir edən amillərdən biri də insanların tez tez köçməsi və yaşayış yerlərini dəyişməsidir. Daha sərfəli mənzil tapdıqda insanlar evlərini satıb başqa ərazilərə köçürlər. Nəticədə eyni binada uzun müddət sabit qonşuluq formalaşmır. Bir neçə aydan sonra eyni evdə başqa insanlar yaşayır və sosial əlaqələr yaranmadan itir.

Bu vəziyyət insanların bir birinə güvəninin azalmasına və sosial bağların zəifləməsinə gətirib çıxarır. Halbuki bir çox cəmiyyətlərdə, xüsusilə bizim milli dəyərlər sistemində, qonşuluq münasibətləri həmişə mühüm yer tutub. Son onilliklərdə isə bu ənənə zəifləməyə başlayıb.

Bəzi müasir yaşayış komplekslərində insanlar arasında ünsiyyətin minimuma endirilməsi də müşahidə olunur. Hətta elə sistemlər qurulur ki, insanların təsadüfi qarşılaşmaları belə azalır. Bu isə sosial əlaqələrin daha da zəifləməsinə səbəb olur.Nəticədə cəmiyyətdə yadlaşma artır, ünsiyyət azalır və insanlar daha çox təcrid olunmuş şəkildə yaşayırlar. Bu, müsbət tendensiya deyil. Ona görə də insanlar yaşadıqları mühitdə qonşuluq münasibətlərini qorumağa çalışmalı, bir birini tanımalı və çətin günlərdə dəstək göstərməlidirlər. Əvvəllər yas və digər mərasimlərdə qonşuların bir yerdə toplaşması, kömək etməsi adi hal idi. İndi isə bu ənənə bir çox yerlərdə zəifləyib. Bu səbəbdən insanlar daha çox tək qalır və sosial dəstək mexanizmləri zəifləyir.

Bu dəyişikliklər milli və mənəvi dəyərlərin zəifləməsi kimi qiymətləndirilir. Ona görə də müasirlik adı altında formalaşan bu dəyişikliklərə tənqidi yanaşmaq və ənənəvi sosial dəyərləri qorumaq vacibdir. Qonşuluq münasibətləri də bu dəyərlərin əsas hissəsidir və onların qorunması cəmiyyətin sosial sağlamlığı üçün əhəmiyyətlidir. Milli mənəvi dəyərlərimizin əsas eleemntlərindən olan qonşuluq münasibətlərini itirməməli, qoruyub saxlamalıyıq.

# Beynəlxalq hesabat: "Dünyanı yaxşı heç nə gözləmir"

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "ekologiya və ətraf mühitin mühafizəsi" istiqaməti çərçivəsində hazırlanıb.*

***Avropada sürətli istiləşmə qar və buz örtüyünü azaldır, təhlükəli dərəcədə yüksək hava temperaturu, quraqlıq, istilik dalğaları və rekord okean temperaturu Arktikadan Aralıq dənizinə qədər bölgələrə təsir göstərir. Dünyanın bir çox digər bölgələri ilə birlikdə Avropa, quruda və dənizdə rekord istilik dalğalarından tutmuş dağıdıcı meşə yanğınlarına və biomüxtəlifliyin davamlı itkisinə qədər artan təsirlərə məruz qalır, bu da Avropa ölkələri və ekosistemlər üçün təhlükəli nəticələrə səbəb olur.***

Nəticələr ötən ay Kopernik İqlim Dəyişikliyi Xidmətini həyata keçirən Avropa Orta Mənzilli Hava Proqnozları Mərkəzi (ECMWF) və Dünya Meteorologiya Təşkilatı (WMO) tərəfindən hazırlanan Avropa İqliminin Vəziyyəti (ESOTC) 2025 hesabatında dərc olunub. Hesabatda təxminən 100 elmi işçinin işi bir araya gətirilib və dünyanın ən sürətli istiləşmə qitəsi üçün iqlim göstəricilərindəki əsas dəyişikliklərə, o cümlədən soyuq mühitlərə, dəniz ekosistemlərinə, çaylara və göllərə, meşə yanğını riskinə və daha çox şeyə dair hərtərəfli məlumat verilib.

2025-ci ildə Avropanın ən azı 95%-i orta illik temperaturdan yuxarı olub. Üç həftəlik rekord istilik dalğası Arktika Dairəsinə yaxın və daxilində temperatur 30°C-dən çox olan subarktik Fennoskandiyaya təsir göstərib. Bütün Avropa bölgələrində buzlaqlar xalis kütlə itkisi yaşayıb, İslandiya rekord səviyyədə ikinci ən böyük buzlaq itkisini qeydə alıb; qar örtüyü orta səviyyədən 31% aşağı olub; Qrenlandiya buz təbəqəsi 139 giqaton (139 milyard ton) buz itirib.

Avropa bölgəsi üçün illik dəniz səthinin temperaturu rekord səviyyədə ən yüksək olub və bölgənin 86%-i güclü dəniz istilik dalğalarını yaşayıb. Meşə yanğınları təxminən 1.034.550 hektar ərazini əhatə edib ki, bu da rekord səviyyədə ən böyük ərazidir. Avropada ilin 11 ayı ərzində çay axınları orta səviyyədən aşağı olub, çayların 70%-də orta illik axınlar müşahidə olunub. Fırtına və daşqınlar Avropada minlərlə insana təsir edib, baxmayaraq ki, son illərə nisbətən həddindən artıq yağış və daşqınlar daha az yayılıb.

2025-ci ildə bərpa olunan enerji mənbələri Avropanın elektrik enerjisinin təxminən yarısını (46,4%) təmin edib, günəş enerjisi isə 12,5%-lik yeni rekord göstəriciyə çatıb. Biomüxtəliflik davamlı gələcək üçün vacibdir, lakin iqlim dəyişikliyi onun deqradasiyasının əsas səbəbidir. İqlim dəyişikliyi və biomüxtəliflik Avropa siyasəti və çərçivələri ilə sıx bağlıdır.



Avropa Orta Müddətli Hava Proqnozları Mərkəzinin (ECMWF) baş direktoru Florian Pappenberger deyir: "Avropa ən sürətlə istiləşən qitədir və təsirləri onsuz da ciddidir. Demək olar ki, bütün regionda orta illik temperatur müşahidə olunub. 2025-ci ildə subarktik Norveç, İsveç və Finlandiya Arktika Dairəsinin özündə 21 gün ardıcıl olaraq və 30°C-dən çox temperaturla rekord tarixdəki ən pis istilik dalğasını qeydə alıblar. 2025-ci il hesabatı siyasət qərarlarını dəstəkləmək və ictimaiyyətin yaşadığımız dəyişən iqlimi daha yaxşı başa düşməsinə kömək etmək üçün aydın və praktiki məlumatlar təqdim edir."

Ümumdünya Meteorologiya Təşkilatının (ÜMT) baş katibi Seleste Saulo: "ÜMT-nin İqlim Vəziyyəti planetimizdə enerji balanssızlığını aşkar etdi və ÜMT və ECMWF tərəfindən birgə hazırlanan Avropa İqlim Vəziyyəti Avropa üçün təsirləri əks etdirir. ESOTC hazırlamaq üçün birgə səylərimiz iqlim dəyişikliyinin biomüxtəlifliyə necə təsir etdiyini və Avropa siyasətçilərinin onu qorumaq və bərpa etmək üçün cəsarətli təşəbbüslərini əks etdirir".

Hesabatda Avropanın ən soyuq bölgələrində, o cümlədən qar və buzun günəş işığını kosmosa geri əks etdirərək iqlim dəyişikliyini yavaşlatmaqda mühüm rol oynadığı Arktika və Alp dağlarında sürətli istiləşmə tendensiyasının davam etdiyi göstərilir. Bu, albedo effekti adlanır.

2025-ci ildə Avropanın ən azı 95%-i orta illik temperaturdan yuxarı olub, Avropanın isə donma temperaturu ilə qış günlərinin yaşandığı ərazi kiçilir. Subarktik Fennoskandiyada iyul ayında üç həftə davam edən ən uzun istilik dalğası müşahidə olunub. Bu dövrdə Arktika Dairəsinə yaxın və daxilində temperatur 30°C-yə çatıb və onu keçib, Norveçin Frosta şəhərində 34,9°C-yə çatıb. Bununla yanaşı, Avropada ümumilikdə rekord dərəcədə az soyuq stressli günlər qeydə alınıb, qitənin 90%-i güclü soyuq stressli orta göstəricidən az gün yaşayıb. Minimum temperatur ilin əksər hissəsində orta göstəricidən yüksək olaraq qalıb.

Orta səviyyədən yuxarı temperatur və orta səviyyədən aşağı yağıntı qar və buz örtüyünün əhəmiyyətli dərəcədə itirilməsinə səbəb olub. 2025-ci ilin mart ayında Avropada qarla örtülü sahə orta səviyyədən təxminən 1,32 milyon kvadrat kilometr (31%) aşağı idi ki, bu da Fransa, İtaliya, Almaniya, İsveçrə və Avstriyanın ümumi sahəsinə bərabərdir. Bu, 1983-cü ildə qeydə alınandan bəri üçüncü ən aşağı qar həcmi idi. Buzlaqlar da xalis kütlə itkisinə məruz qalıb və İslandiya rekord səviyyədə ikinci ən böyük buzlaq kütlə itkisini qeydə alıb. Bundan əlavə, Qrenlandiya buz təbəqəsi 139 giqaton (139 milyard ton) buz itirdi ki, bu da Avropa Alp dağlarındakı bütün buzlaqlarda saxlanılan həcmdən təxminən 1,5 dəfə çoxdur. Bu buz itkisi qlobal dəniz səviyyəsinin yüksəlməsinə səbəb olur və hər santimetr artım əlavə 6 milyon insanı sahil daşqınlarına məruz qoyur.

ECMWF-də İqlim üzrə Strateji Rəhbər Samantha Burgess dedi: "ESOTC 2025 açıq bir mənzərə yaradır: iqlim dəyişikliyinin tempi daha təcili tədbirlər tələb edir. Artan temperatur, geniş yayılmış meşə yanğınları və quraqlıqla bağlı dəlillər birmənalıdır; iqlim dəyişikliyi artıq gələcək təhlükə deyil, bugünkü reallığımızdır. Biomüxtəlifliyin itirilməsinə təsirlə qarşılaşarkən, təmiz enerji keçidində baş verən uyğunlaşma sürətinə uyğunlaşmalı və eyni zamanda, güclü elmin siyasətimizin və qərarlarımızın əsasını təşkil etməyə davam etməsini təmin etməliyik."

Qlobal okean insan tərəfindən törədilən istixana qazı tullantılarının yaratdığı artıq istiliyin təxminən 90%-ni udub. 2025-ci ildə Avropa okean bölgəsində rekord illik ən yüksək dəniz səthi temperaturu yaşanıb və bu, ardıcıl dördüncü il rekord istiliyi qeydə alıb. Bu uzunmüddətli tendensiya biomüxtəlifliyə, növlərə və yaşayış yerlərinə mənfi təsir göstərir. Dəniz isti dalğaları quru üzərindəki istilik dalğaları ilə də üst-üstə düşə bilər - gecə də daxil olmaqla daha ekstremal temperatur və rütubətə səbəb olur ki, bu da insanların istilik stressindən sağalmasını ləngidə və yuxunu poza bilər. 2025-ci ildə Avropada geniş yayılmış isti hava şəraiti müşahidə olunub - qitənin ən azı 95%-də orta səviyyədən yuxarı temperatur qeydə alınıb. İstilik dalğaları Aralıq dənizindən Arktikaya qədər Avropanın böyük bir hissəsini əhatə edib. Bu dalğalar Avropada qeydə alınan ikinci ən şiddətli istilik dalğası və iyul ayında subarktik Fennoskandiyanın ən uzun və ən şiddətli istilik dalğası olub. Avropanın böyük bir hissəsində də ən azı "güclü" istilik stressi ilə orta göstəricidən daha çox gün yaşanıb. İspaniyanın cənubu və şərqi orta göstəricidən 50 gün çox, 32°C-dən yuxarı "hiss olunan" temperatur qeydə alınıb.

İsti və quru şərait Avropada rekord səviyyədə meşə yanğınlarının yayılmasına səbəb oldu. Ümumilikdə, Avropada təxminən 1.034.000 hektar ərazi yandı. Avropa Komissiyası artan meşə yanğını riskini əsas prioritet kimi müəyyən edib, çünki İqlim Dəyişikliyi üzrə Hökumətlərarası Panelinin Altıncı Qiymətləndirmə Hesabatının proqnozları göstərir ki, Avropanın bütün bölgələrində meşə yanğınları təhlükələrinin artması ehtimalı var. Avropa İttifaqı 2030-cu ilə qədər quru və dəniz ərazilərinin ən azı 20%-ni və 2050-ci ilə qədər ehtiyacı olan bütün ekosistemləri əhatə edən miqyaslı ekosistemləri bərpa etmək üçün hüquqi cəhətdən məcburi hədəflər götürməyə öhdəlik götürüb. Bu iş həmçinin daha geniş iqlim strategiyalarına biomüxtəlifliyin qorunmasını daxil edən Avropa Yaşıl Sazişi və AB İqlim Qanunu ilə dəstəklənir.

ARAŞDIRMA

***Lalə Mehralı***




# Uşaqlar Qurban bayramını qorxmadan necə qəbul etməlidir?

**Qurban bayramı təkcə dini ibadət deyil, həm də mərhəmət, paylaşmaq, yardımlaşmaq və insanın mənəvi məsuliyyətini xatırladan xüsusi günlərdən biridir. Lakin müasir dövrdə valideynləri düşündürən əsas məsələlərdən biri də budur: uşaqlara bu bayramı necə anlatmaq olar ki, onların həm dini-mənəvi dünyası formalaşsın, həm də heyvan sevgisi zədələnməsin? SİA mövzu ilə bağlı araşdırma edib.**

Xüsusilə azyaşlı uşaqlar heyvanlarla emosional bağ qurmağa meyilli olduqları üçün qurban mərasiminə yanlış və sərt şəkildə şahid olmaları onlarda qorxu, travma, aqressiya və ya heyvanlara qarşı qarışıq hisslər yarada bilər. Psixoloqlar bildirirlər ki, uşağın yaşına uyğun yanaşma burada çox vacibdir. Bayramın mahiyyəti uşağa "kəsmək" üzərindən deyil, "paylaşmaq", "yardım etmək", "şəfqət göstərmək" və "ehtiyacı olanı sevindirmək" üzərindən izah edilməlidir. Qurban bayramını uşaqlara aşılayarkən ilk növbədə onların yaş xüsusiyyətləri nəzərə alınmalıdır. Məsələn, 3-6 yaş arası uşaqlar hadisələrin dini və simvolik mənasını tam anlamırlar. Bu yaşda uşaqlara "Qurban bayramı insanlara kömək etmək bayramıdır", "bu gün insanlar bir-biri ilə paylaşır" kimi sadə və sevgi dolu izahlar verilməlidir. Heyvanın necə kəsilməsi barədə detallı danışmaq düzgün hesab edilmir. Psixoloqlar qeyd edir ki, bu yaşda uşaqlar gördüklərini birbaşa və emosional qəbul etdikləri üçün sərt görüntülər onlarda qorxu yarada bilər.

7-10 yaş arası uşaqlarda artıq suallar artır. Onlar "niyə qurban kəsilir?", "niyə heyvan seçilir?" kimi suallar verirlər. Bu mərhələdə valideynlər dini mahiyyəti yumşaq şəkildə izah edə bilərlər. Vacib məqam budur ki, uşağa heyvanlara zülm edildiyi düşüncəsi ötürülməsin. Əksinə, heyvana əziyyət verməməyin, ona düzgün yanaşmağın dinin əsas prinsiplərindən biri olduğu vurğulanmalıdır. Uşağa anlatmaq lazımdır ki, İslamda heyvana işgəncə haram sayılır və qurban ibadətində də əsas məqsəd insanlara yardım etməkdir.

11 yaşdan sonra uşaqlar hadisələri daha analitik dərk etməyə başlayırlar. Bu yaşdan etibarən qurban ibadətinin tarixi, dini və sosial tərəfləri daha geniş izah oluna bilər. Lakin yenə də mərasimdə uşağın psixoloji hazırlığı nəzərə alınmalıdır. Hər uşaq eyni reaksiyanı vermir. Bəziləri sakit qarşılayır, bəziləri isə uzun müddət təsirlənə bilir. Uşaqlarda heyvan sevgisini qorumaq üçün bayram günlərində onlara mərhəmət hissini praktik şəkildə göstərmək vacibdir. Məsələn:

- küçə heyvanlarına su və yem qoymaq;
- heyvanlara qarşı kobud davranmamağı öyrətmək;
- "canlılara sevgi Allahın yaratdıqlarına hörmətdir" fikrini aşılamaq;
- qurban ətinin ehtiyacı olan ailələrə paylanmasına uşağı da cəlb etmək.

Belə olduqda uşaq Qurban bayramını qorxu və qan görüntüsü ilə deyil, paylaşmaq və yaxşılıq etməklə əlaqələndirir.

Psixoloqlar bildirirlər ki, uşaqların empati hissinin inkişafında heyvan sevgisinin böyük rolu var. Heyvanlara sevgi göstərən uşaqlarda paylaşmaq, qayğı göstərmək və mərhəmət hissi daha güclü formalaşır.

ARAŞDIRMA

***Ayşən Vəli***

# Nağdsız ödənişlərdə geri qaytarma problemi: pul ən gec neçə günə hesaba oturmalıdır?



*Son vaxtlar nağdsız ödənişlərlə edilən alış-verişlərdə vətəndaşların ən çox şikayət etdiyi məsələlərdən biri geri qaytarılan pulların gecikməsidir. Mağazada məhsul qaytarılsa da və "pulu geri qaytardıq" deyilsə də, vəsaitin hesaba günlərlə oturmaması alıcılar arasında narazılıq yaradır. Bəzi hallarda bu gecikmələr 3-5 iş gününü də keçir və məsuliyyətin bankda, yoxsa satıcı şirkətdə olduğu sual doğurur. Bəs bu prosesdə əsas problem haradadır və vətəndaşlar hüquqlarını necə qoruya bilər? Qanunla bu prosesin konkret bir müddəti varmı? Vətəndaş pulunu ən geci neçə günə hesabında görməlidir? Burada əsas məsuliyyət bankdadır, yoxsa mağazada?*



## VƏKİL AÇIQLADI

Məsələ ilə bağlı vəkil Elnur Məmmədov SİA-ya açıqlamasında bildirib ki, nağdsız ödənişlərdə məhsul qaytarıldıqdan sonra pulun karta gec oturması Azərbaycanda ən çox rast gəlinən istehlakçı şikayətlərindən biridir: "Praktikada mağaza "geri qaytardıq" (refund) desə də, vəsaitin kart hesabında görünməsi dərhal baş vermir. Bu prosesdə həm satıcı bankı, həm də kartın aid olduğu bank iştirak edir. Azərbaycan qanunvericiliyində kartla edilmiş ödənişin geri qaytarılması üçün dəqiq müddət yoxdur. Lakin istehlakçı hüquqlarını tənzimləyən qaydalara əsasən, satıcı qaytarılmalı olan məbləği əsassız olaraq gecikdirməməlidir. Bank kartı əməliyyatlarının texniki qaydalarına görə isə əksər hallarda vəsait 3, bəzən isə 5 iş günü ərzində karta qaytarılır. Praktik olaraq, alıcı pulu ən gec 14 iş günü ərzində hesabında görməlidir. Bu müddət keçdikdə artıq rəsmi şikayət vermək üçün əsas yaranır. Əslində mağaza yalnız sözlə "qaytardıq" deyirsə, lakin əməliyyatı bank sisteminə göndərməyibsə, məsuliyyət tam şəkildə mağazanın üzərindədir. Alıcı bunu dəqiqləşdirmək üçün mağazadan pulun geriqaytarılma qəbzini tələb edə bilər. Əgər geriqaytarma əməliyyatı artıq kart sistemində təsdiqlənibsə, lakin vəsait kart hesabında görünmürsə, məsuliyyət kartı buraxan bankın üzərinə düşür. Əgər gecikmə nəticəsində istehlakçıya maddi zərər dəyibsə, kompensasiya tələb etmək mümkündür".

***Arzu Qurbanlı***

## Bank "BTB" ASC-nin təşkilati-hüquqi formasının dəyişdirilməsi və qiymətli kağızların dövriyyədən çıxarılması barədə məlumat

Bankın yenidən təşkili yolu ilə "T-Kredit Bank Olmayan Kredit Təşkilatı" MMC-yə çevrilməsi ilə əlaqədar olaraq Bakı şəhəri, Yusif Səfərov küçəsi 27 ünvanında yerləşən, nizamnamə kapitalı 71.450 000 (yetmiş bir milyon dörd yüz əlli beş min) Azərbaycan manatı həcmində olan Bank "BTB" Açıq Səhmdar Cəmiyyəti AZ1001009443 dövlət qeydiyyat nömrəli, nominal dəyəri 1000 manat (bir min) olan, 71.450 (yetmiş bir min dörd yüz əlli) ədəd adi, adlı, sənədsiz səhmlərini dövriyyədən çıxarır. Şirkət, öz müştərilərini və digər bütün maraqlı tərəfləri bu barədə məlumatlandırmaq və bütün hüquqi prosedurların düzgün həyata keçirildiyini bildirmək məqsədilə bu barədə mətbuatda məlumat yayımlayır.


## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Bakı-Tbilisi qatarında plaskart vaqonlar olmayacaq

## *Qatarlarda restoran, multimedia və duş kabinələri olacaq*



Mayın 26-dan fəaliyyətə başlayacaq Bakı-Tbilisi-Bakı marşrutu üzrə qatarlarda plaskart tipli vaqonlar olmayacaq. Bu barədə Azərbaycan Dəmir Yollarından məlumat verilib. Bildirilib ki, sərnişinlərə komfort, komfort+ və lüks sinifləri üzrə xidmət təqdim olunacaq.

Qeyd edək ki, qatarlar yataq tipli vaqonlardan ibarət olacaq. Bakı-Tbilisi-Bakı marşrutu üzrə səyahət tarifləri isə Bakı-Tbilisi: 81 AZN-dən, Yevlax-Tbilisi: 67 AZN-dən, Gəncə-Tbilisi: 62 AZN-dən, Ağstafa-Tbilisi: 57 AZN-dən, Böyük Kəsik-Qardabani: 51 AZN-dən başlayır.

Xatırladaq ki, ilkin razılaşmaya əsasən, qatarlar hər gün Bakıdan saat 23:10-da yola düşəcək və növbəti gün saat 08:41-də Tbilisiyə çatacaq, Tbilisidən isə saat 21:00-da yola düşməklə növbəti gün Bakıya saat 06:24-də çatacaq. Sərnişinlər qatar daxilindəki restoran-vaqonda da əlavə ödənişlə qida sifariş edib yeyə bilərlər. Bilet qiymətlərinə sərnişinlər üçün siniflər üzrə xüsusi səfər paketləri daxildir. Paketlərə gigiyenik vasitələr, quru və nəm salfetlər, şampun, duş geli və digər zəruri ləvazimatlar daxildir.

Bundan əlavə, qatarlarda televizorlar, multimedia xidmətləri, sanitar qovşaqlar quraşdırılıb "Lüks" kupelərdə isə hər kupenin ayrıca sanitar qovşağı və duş kabinəsi mövcuddur. Həmçinin qatarlar Wi-Fi sistemi ilə də təchiz olunub və sərnişinlər səfər zamanı internetdən istifadə edə biləcəklər.

## ELAN

**Məmmədova Leyla Arif qızına məxsus 757767 saylı, 24.09.2018-ci il tarixində verilmiş Yeni Azərbaycan Partiyasının üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.**

* * *

**DSX tərəfindən Bayramlı Seymur İntiqam oğluna verilmiş 0000940 nömrəli xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.**


*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet həftədə iki dəfə nəşr olunur**
**Tiraj: 2000**